Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

# Mədəniyyətimiz

№ 10 (1377) 17 yanvar - 18 yanvar 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# Mədəni irsimizin qızıl ilməsi

(əvvəli ötən sayımızda)

**Müasir tələblərə cavab verən muzeydə toplanılan nümunələr xalqımızın tarixini özündə ehtiva edir. Orijinal üslubda inşa olunan bükülmüş xalçanı xatırladan Xalça Muzeyinin sərgi və fondlarında 13 min 300-dən artıq eksponat və əşya saxlanılır ki, bu da bu sənət növünün müxtəlif dövrlərdəki inkişafını əks etdirir.**

Muzeydə Böyük Britaniyanın Viktoriya və Albert Muzeyində saxlanılan məşhur "Şeyx Səfi" xalçasının surəti, eləcə də XVII, XVIII, XIX və XX əsrlərdə toxunmuş məşhur kompozisiyalar da yer alıb. Son illər dövlətimiz tərəfindən xarici ölkələrdə saxlanılan Azərbaycan xalqına məxsus sərvətlərin geri qaytarılması məqsədilə görülən müvafiq tədbirlərin nəticəsi olaraq Xalça Muzeyinin kolleksiyası daha da zənginləşib. Belə ki, Cənab İlham Əliyevin "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" 07.12.2004-cü il tarixli qanun və həmin qanunun tətbiqi haqqında 07.02.2005-ci il tarixli Fərmanının 4.1.4 maddəsindəki "Xarici ölkələrin muzeylərində saxlanılan nadir Azərbaycan xalçalarının ölkəyə qaytarılmasına şərait yaradılması" bəndinə əsasən muzeyi beynəlxalq aləmdə təbliğat işlərini davam etdirilir. Aparılan uğurlu işlərin məntiqi nəticəsi olaraq Şərq xalçası və tekstili üzrə Çikaqo (ABŞ) cəmiyyətinin üzvü mərhum Qrover Şiltsin kolleksiyasından iki ədəd Azərbaycan xalçası - "Əjdahalı" (Qarabağ, XVII əsrin sonu) və "Səlyan Xiləsi" (Şirvan, XIX əsr) muzeyə hədiyyə olunub. Bu hadisə Azərbaycan xalça sənəti tarixinin mühüm səhifələrindən birinin bərpa edilməsi deməkdir.



Sonsuz əlvanlığı, bəşəriliyi yaşadan Azərbaycan xalça sənəti elm sahəsi kimi öyrənilir, araşdırılır, tədqiq edilir. Onun elm kimi öyrənilməsi, rəssamların yaradıcılığında müasir inkişafı xalq rəssamı Lətif Kərimovun adı ilə bağlıdır. O, Azərbaycan xalçalarını tədqiq edərək, dekorativ sənəti yeni ornamentlərlə zənginləşdirib, ənənəvi bəzək elementləri əsasında yeni dekorativ motivlər yaratmışdır.Onun çoxcildli "Azərbaycan xalçası" əsərində 1300-dən artıq Azərbaycan xalça ornament elementinin təhlili verilib.

**"Bütün infrastruktur layihələri ilə yanaşı, əlbəttə ki, mədəniyyətlə bağlı olan tədbirlər, obyektlər, mədəniyyət sahəsindəki işlər xüsusi məna daşıyır. Çünki mədəniyyət hər şeyin əsasıdır".**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycanda xalçaçılığın inkişafı üçün görülən işlərin nəticəsi olaraq xalçaçılıq sənət və elm sahəsi kimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, eləcə də, incəsənət yönümlü kolleclərdə tədris edilir. Xalçaçılıq sənət kimi texniki peşə məktəblərində, uşaq rəsm qalereyalarında və digər yerlərdə öyrədilir. Azərbaycan xalçaçılıq ənənələrini davam etdirən "Azər-İlmə" Azərbaycan xalçasının çoxəsrlik tarixini araşdıraraq tədqiq edir. "Azər-İlmə"nin kompleks axtarışlarının nəticəsi olaraq rus, ingilis dillərində "Azərbaycan xalçaları", "Azərbaycan xalçaları. Qarabağ qrupu", rus, ingilis, alman, fransız, ərəb dillərində "Azərbaycan xalçaları. İrəvan qrupu", "Azərbaycan xalçaları. Təbriz qrupu", "Azərbaycan xalçaları. Şirvan qrupu", "Azərbaycan xalçaları. Naxçıvan qrupu", "Azərbaycan xalçaları. Gəncə qrupu" və s. işıq üzü görərək, dünya muzeylərinə və kitabxanalarına göndərilib.

Azərbaycan xalçalarının unudulmaqda olan çeşnilərini bərpa edərək, milli xalçalarımızın bədii ənənələrini yaşadan "Azər-İlmə"nin ekspedisiya qrupları ölkəmizin müxtəlif xalçaçılıq bölgələrində araşdırmaların davam etdirirlər. Azərbaycan, rus və ingilis dillərində ayrı-ayrılıqda Nyu-Yorkda, İstanbulda və Moskvada işıq üzü görmüş "Naxçıvan xalçaçıları" kataloq-kitabı da bu tarixi türk yurdunun qədim xalçaçılıq ənənələri, bu el sənətini yaşadan, yaradan və gələcək nəsillərə ərməğan edən xalçaçılar, dünya muzeylərində və kolleksiyalarında mühafizə olunan, indiyədək Azərbaycan ictimaiyyəti üçün naməlum olan Naxçıvanın xalça və xalça məmulatları haqqında məlumat verilmişdir.

Zaqafqaziyada analoqu olmayan "Azər-İlmə" tarixən qədim toxuculuq mərkəzləri Abşeronda, Qarabağda, Qazaxda, Qubada, Gəncədə, Lerikdə, Şirvanda, Şəkidə emalatxanaları fəaliyyət göstərir. Bakı, Qazax-Borçalı, İrəvan, Naxçıvan, Qarabağ, Gəncə, Quba, Təbriz, Şirvan xalça qruplarının çeşniləri əsasında yundan və ipəkdən, yüksək sıxlıqlı, orijinal tərtibatlı, şux koloritli xalçalar istehsal edən "Azər-İlmə" "Uğur", Caspian Energy İnternational Award, "Kraliça Viktoriya adına eksklüziv" mükafatı və s. layiq görülüb.

Bütün bu uğurlarla yanaşı, bildiyimiz kimi, müasir həyatımızda Azərbaycan xalçasına qarşı güclü təbliğat aparılır. Azərbaycanın vizit kartına çevrilən dəyərləri adlarına çıxaraq dünya dövlətlərində tarixi keçmişlərini təsdiqləmək məqsədilə ermənilərə məxsus olduqlarının göstərməyə çalışırlar. Çox əfsuslar ki, ermənilər vaxtilə oğurlayıb, qaçaqçılıqla buradan apardıqları qədim xalçalarımızı əvvəllər Qafqaz xalçaları adı altında təqdim edirdilərsə, indi erməni xalçaları adı ilə tanıdırlar. Adlarına çıxardıqları xalçalarımıza həsr olunmuş onlarla veb sayt açıb, Azərbaycan xalçalarından bəhs edən kitabları belə öz adlarına çıxarıb erməni və xarici dillərdə nəşr edirlər. Ermənilər xalçaçılıqdan ideoloji və mənəvi silah kimi faydalanırlar.



Həqiqətən də, Azərbaycanı xalçasız, xalçanı isə Azərbaycansız təsəvvür etmək qeyri-mümkündür. Bir gün Peyğəmbərdən (s.a.s) soruşurlar ki, dünyada ən ürəkaçan şey nədir? O isə belə cavablandırmışdır ki, ilk övladın yumşaq xalça üzərində gəzməsidir. Çox qəribədir ki, insan həyata ayaq açdığı ilk gündən belə yumşaq xalça üzərində hərəkət edir, dünyadan köçəndə də məhz xalça ilə yola salınır. Bunun çox maraqlı məqamları vardır. Azərbaycana qonaq gələn şəxsə təqdim olunan gözəl əşya xalçadır. Azərbaycandan qonaq gedərkən xarici dövlətlərə aparılıb ən dəyərli hədiyyə olaraq təqdim olunan da yenə də xalçadır. Belə bir fərqli milli sərvət - Azərbaycan xalçaları dünyada lazımi səviyyədə təqdim olunur.

**Göründüyü kimi, dünya mədəniyyəti içərisində yeri olan Azərbaycan xalçası özünün məxsusi ornamentləri ilə fərqlənən sənət nümunəsidir. Odur ki, Azərbaycan xalçasının ənənələrini qorumaq, yaşatmaq və təbliğ etmək ümumxalq işidir.**

***Oğuz Ayvaz***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ